**Ənvər SADIQOV**
AMK-nın "İnstrumental-muğam" kafedrasının
baş müəllimi, xalq artisti
Ünvan: Yasamal r., Ə.Ələkbərov küç. 7
E-mail: enversadiqov@gmail.com

# AZƏRBAYCAN QARMONUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR

***Xülasə:*** *XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan xalqının məişətinə, XX əsrin 30-cu illərindən isə peşəkar musiqimizə daxil olan qarmon aləti bu günədək zaman-zaman təkmilləşib məhz Azərbaycan qarmonu kimi formalaşmışdır. Təqdim olunan məqalədə milli qarmonun uğurlu təkmilləşməsi, onun təkmilləşməsinə nail olan mahir ifaçılarımız və hazırlayan peşəkar ustalar haqqında məlumat verilir.*
***Açar sözlər:*** *qarmon, ifaçı, peşəkar musiqi, musiqi alətləri*

Tarixən dövrün, zamanın tələblərinə cavab verməyən musiqi alətləri tədricən sıradan çıxmışlar. XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan xalqının məişətinə, XX əsrin 30-cu illərindən isə peşəkar musiqimizə daxil olan qarmon aləti bu günədək zaman-zaman təkmilləşərək məhz Azərbaycan qarmonu kimi formalaşmışdır. Belə ki, 1920-30-cu illərdə Əhəd Əliyev (1893-1942), 1940-cı illərdə Teyyub Dəmirov (1908-1970), 1950-ci illərdə Məmmədağa Ağayev (1919-1982), 1980-ci illərdə Hüseyn Həsənov (1950), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aydın Əliyev (1962) və digər mahir ifaçılarımız qarmon hazırlayan peşəkar ustalarla müvafiq müzakirələr aparıb, tövsiyyələr verməklə milli qarmonumuzun uğurlu təkmilləşməsinə nail olmuşlar.

Xatırladaq ki, qarmonun Şərqdə hələ qədim zamanlardan Çin şeni (şenqi), Əfqanıstan, Pakistan, Hindistan harmonu, ərğanı, Azərbaycan cibçiqi kimi prototipləri, "əcdadları" məlumdur [1, s. 65]. Görkəmli qarmon ifaçısı, əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Zakir Mirzəyevin "Azərbaycan qarmonu" adlı monoqrafiyasında irəli sürdüyü müddəaya görə qarmonun ilk növləri Avropa və rus alimlərinin qəbul etdikləri kimi şenq nəfəs çalğı aləti əsasında deyil, Şərqdə mövcud olan tulum və ərğan əsasında təşəkkül tapmışdır [3, s. 22-23].

Ərğan və ərğənuna dair də tədqiqatçılar arasında fikir ayrılığı mövcuddur, belə ki, qarmonun sələfinin ərğənun deyil, ərğan olduğu daha düzgün hesab edilir. Sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadə hər iki aləti – ərğan [7, s. 237-240] və ərğənunu [7, s. 184-195] geniş şəkildə tədqiq etmiş və bununla bağlı yazmışdır: "Bəzən ərğanı xarici görkəmi və quruluşca kəskin fərqlənən ərğənun, hətta qanun alətləri ilə eyniləşdirirlər. Halbuki ərğan düyməli (klavişli), körüklü, aerofonlu alət, ərğənun telli, mizrabla səsləndirilən, rudabənzər alət olmuş, qanun isə dövrümüzə gəlib çatan, diz üstündə qoyularaq hər iki əlin şəhadət barmaqlarına taxılmış oymağabənzər mizrabla çalınan telli alətdir" [7, s. 237]. A.Nəcəfzadə ərğan və ərğənun

musiqi alətlərinin hər birinin yaranma tarixi, etimologiyası, morfologiyası, ədəbi qaynaqlarda təsviri haqqında qaynaqlara söykənməklə elmi nəticəyə gəlir, ərğanın aerofonlu, ərğənunun isə hordofonlu qrupa aid edildiyini yazır. O, texnika üzrə fəlsəfə doktoru, dosent Əhmədağa Əhmədovun (1922-2008) mövzu ilə bağlı yazdığı fikirlərə yüksək dəyər vermişdir [7, s. 188]. Əhmədağa Əhmədov yazır: "Nədənsə, indiki musiqiçilərimiz belə hesab edirlər ki, ərğənun elə orqan dediyimiz alətdir, sıxılmış hava ilə işləyir. Bu ixtilafa son qoymaq üçün şübhəsiz, Nizaminin bu tarixi sənədini əsas götürüb deməliyik ki, ərğənun simli alətdir, orqan deyil. Müasir orqan isə tamamilə başqa bir alətdir" [2, s. 111].

Zakir Mirzəyev tulum və ərğan alətlərinin səsinin körük vasitəsilə əldə edilməsi prinsipinə əsaslanaraq qarmonda bu alətlərin elementlərinin olduğu fikrini irəli sürmüşdür. Bu alətlərdə səslər havanın ağız və körüklə sərbəst qalxıb-enən dillər yerləşdirilən gövdəyə verilməsi ilə hasil edilirdi. Qarmonda da səsin mənbəyini körüyün açılıb-yumulması nəticəsində yaranmış hava axınının kanallar vasitəsilə qarmonun metal dilciklərini hərəkətə gətirməsi təşkil edir. 1821-ci ildə alman ustası Fridrix Kristian Buşman (1775-1832) dodaq qarmonunu, sonra isə bir sıralı körüklü əl qarmonunu hazırlayır. 1830-cu ildə Rusiyanın Tula quberniyasında silah ustası İvan Sizov primitiv bir sıralı alman harmonikasına uyğun sağ tərəfdə 7 klaviş (dil), sol tərəfdə isə 2 bəm düyməsi olan və bəsit mahnıları ifa etməyə imkan verən qarmoşka düzəldir [9, s. 75]. Sonralar kustar üsulla 8-10 və daha çox klavişli, 2-4 düyməli qarmoşkalar hazırlanmağa başlanır. XIX əsrin 40-cı illərində Tulada bu alətin istehsalı ilə məşğul olan kiçik fabriklər fəaliyyət göstərir.

1870-ci ildə tulalı qarmonçu, müəllim və dirijor Nikolay İvanoviç Beloborodov (1828-1912) ilk dəfə xromatik səsdüzümlü qarmonlar düzəldir. Alətin təkmilləşməsi Rusiyanın müxtəlif regionlarında – Tula, Liven, Vyatka, Voloqoyev, Saratov, Kasimov, Yeletsk və s. yerlərində aparılır. Onlar bir-birindən kökü, diapazonu, səs və registrlərinin sayı, hazır akkordların daxil edilib-edilməməsinə görə fərqlənir. Bu alətlər Rusiyada kütləvi şəkildə əhali arasında geniş yayılır və əsl xalq çalğı alətinə çevrilir.

Qarmonun hər iki növünün (diatonik və xromatik) sadəliyi, güclü və parlaq səsi, ifa üsullarının yüngüllüyü onu bir çox xalqlar – tatar, başqırd, çuvaş, mari, mordva, ləzgi, çeçen, inquş, osetin, acar, gürcü və s. arasında geniş yayılmasına imkan verirdi. Bu səbəbdən Azərbaycanda da XIX əsrin ikinci yarısından başlayaraq qarmoşkalardan istifadə edilməsi reallaşır. Diatonik səsdüzümünə malik olan alətlərin 7, 12, 14, 16 və 18 ağ klavişi var idi. XIX əsrdə Azərbaycanda bir çox ifaçılar bu alətlərdən istifadə edirdilər. Lakin bununla belə üstünlük daha çox xromatik qarmonikalara, əsasən də onun Kazan növünə verilirdi.





***14 klavişli qarmon 7 klavişli qarmon 12 klavişli qarmon***

XX əsrin 20-ci illərinin sonunda Kor Əhəd (tam adı: Əhəd Fərzəli oğlu Əliyev) ləqəbi ilə tanınan və böyük şöhrət qazanan qarmon ifaçısı Əhəd Əliyevin məsləhəti və təklifi ilə Saratov növlü qarmon bakılı usta Arxip Karpuşkin tərəfindən təkmilləşdirilir. Bu qarmon 60 səsdən ibarət olmuş, sağ tərəfdə 18 ağ və 12 qara klavişlər yerləşmişdir. Həmin qayda ilə sol tərəfdə də 30 səs mövcud idi. Bundan əlavə, sol tərəfdə dil-klavişlər əvəzinə düymələr mövcud idi. Təkmilləşmiş bu alət Azərbaycan qarmonu adlanmağa başlayır. Azərbaycan qarmonu ümumi xarici görünüşünə görə Tula, Saratov, Kazan və qarmonun digər növlərindən fərqlənməsə də, ölçülərinə, səs sırasına və tembrinə, kökünə (in H), sağ və sol əllərin funksiyalarına, tirlərin (qarmon ifaçılığında səslərin dirəyi, sütunu mənasında işlədilən sözdür, ruslar buna planka deyirlər.: Ə.S) sayına görə fərqlənir. Məsələn, rus qarmonunda müşayiət düymələri sayca çoxdur, həm də səs yığımı ilə düzülüş qaydasının yığılma sistemi milli musiqi koloriti baxımından özünəməxsusluq təşkil edir. Azərbaycan qarmonunun quruluşu bu hissələrdən ibarətdir:

– dördbucaqlı qutu şəklində gövdə;
– körük;
– səs hissələri;
– klaviş mexanizmi, yəni dil, düymələr;
– aşırma qayış və sol əl üçün keçirici qayış.

Alətin gövdəsi təxminən 362x268x195 mm ölçüdə olub onun qalan hissələrinin bərkidildiyi və quraşdırıldığı sağ və sol taxta çərçivələrdən ibarətdir. Çərçivələri birləşdirən körük (köynək) dəyişən həcmdə havanın verilməsini təmin edən hava rezervuarı rolunu oynayır. O, iki tərəfdən nazik möhkəm parça ilə yapışdırılan büzməli kartondan hazırlanır. Körüyün kənarları gövdənin çərçivələrinə yapışdırılır. Gövdənin sağ hissəsində 18 tonlu ağ və 12 yarımtonlu qara klavişlərdən ibarət klaviatura yerləşən qrif bərkidilir.

Sənətşünaslıq elmləri doktoru, professor Səadət Abdullayeva (1940-2017) Azərbaycan qarmonunu rus qarmonu ilə müqayisə apararkən yazır: “Rus qarmonundan fərqli olaraq, Azərbaycan qarmonunun sol əl üçün “yığma” akkordları yoxdur. Onların əvəzinə iki sırada düzülmüş düymələrdən (18 tonlu və 12 yarımtonlu) istifadə edirlər.

Bu düymələri basarkən sağ əldə alınan səslərdən fərqli olaraq bir oktava aşağı səslər əldə edilir” [1, s. 333].

Qarmonda səs – sol əllə körüyün dartılıb-sıxılması ilə metal tirlərin (plankaların) hər iki tərəfinə pərçimlənən müxtəlif uzunluq və qalınlıqda, enli əsası və ensiz titrəyən hissələri olan nazik elastik dilciklərin (lövhələrin) rəqsi ilə əmələ gəlir. Müasir qarmonlarda sağ tərəfdəki tirlərin sayı tonlar beş, yarımtonlar isə üçdür. Onlar müəyyən qaydada üzərində havanın keçməsi üçün tirlərə ötürülən dəlikləri olan ağac rezonatorlara bərkidilir. Xüsusi üsulla hazırlanmış qapaqlar qrifdəki klaviş və gövdədəki düymələrə dəmir oxlarla birləşir. Hər bir ağ klavişin səslənməsi üçün 5 dildən – ikisi zil səslərin, ikisi orta, biri isə bəm səslərin səslənməsi üçün, qara klavişlərin səslənməsi üçün isə 3 dildən (biri zil, biri orta, biri də bəm səslər üçün) istifadə edilir. Dilciklərin titrəyişi körüyün dartılması və ya sıxılması zamanı dilciyin bir və ya digər tərəfində əmələ gələn hava təzyiqinin fərqi hesabına yaranır. Körüyün açılması və bağlanması, habelə klavişin basılması zamanı sıxılmış hava uyğun səs tirciklərindən keçir və onun oyuğundakı dilciyi titrədir. Titrəyən lövhələrin (dilciklərin) ölçülərindən asılı olaraq müxtəlif yüksəklikdə səslər alınır. Çalğı zamanı sağ əlin şəhadət, orta, üzük və çeçələ barmaqları melodiyanı səsləndirir (qamma, arpecio, akkordları ifa etdikdə baş barmaq da istifadə olunur), sol əlin üçüncü və ya dördüncü barmağı uyğun tonallıqda dəmsaz not (pedal) saxlayır. Azərbaycan qarmonunun diapazonu kiçik oktavanın C səsindən ikinci oktavanın F səsinə qədərdir. Alətin ümumi kökü fortepiano ilə müqayisədə ½ ton aşağı, yəni in H (si) kökündədir.

Qarmon ifaçısı stulda əyləşərək gövdənin sağ tərəfini sağ ayağın dizi üstə saxlayır, sağ tərəfdəki uzun qayışı sağ çiynindən, sol əlini isə sol tərəfdəki qısa qayışın altından keçirir. Körüyün dartılması və ya sıxılması sol əlin hərəkəti ilə yerinə yetirilir. Alətdə ayaq üstündə də ifa etmək mümkündür, bunun üçün əlavə ikinci uzun qayışdan istifadə edib onu sol çiynin üstündən keçirmək lazımdır.

Azərbaycan qarmonunun formalaşmasında və təkmilləşməsində Əhəd Əliyev və Teyyub Dəmirovun tövsiyələri mühüm əhəmiyyət kəsb edib. Belə ki, 12, 14, 16 dilli qarmonların 18 ağ və 12 qara dilə çatdırılaraq, xromatik səsdüzümünə gətirilməsində onların böyük rolu olmuşdur. Belə sənətkarlar Azərbaycan qarmonunun səs sistemini və diapazonunu milli səsdüzümünə tam uyğunlaşdırdıqları üçün xalq musiqisinin və muğamların ifasına geniş imkan açdılar.

XX əsrin ikinci yarısında da Azərbaycan qarmonunun təşkilləşdirilməsi yolunda yeniliklər meydana gəldi. Bir çox sənətkarların təşəbbüsü ilə Rusiyadan bir neçə üç oktavalı qarmonlar sifariş olunub Azərbaycana gətirilmişdi. Sonralar bu qarmonlara tələbat azalmışdı. Bunun da səbəbi sağ və sol tərəfin hər ikisində 5 birtonlu və 3 yarımtonlu tirciklər olduğundan alətin ümumi çəkisinin ağır olması idi. Fikrimizcə, başqa səbəb də vardı. Belə alətlərin diapazonu kiçik oktavanın C səsindən III oktavanın C səsinə qədər idi. Yəni, adi Azərbaycan qarmonuna nisbətən bu alətlərdə II oktavanın F səsindən III oktavanın C səsinə qədər zil səslər yer almışdı. Xalq musiqimizin ifası zamanı bu zil səslərə ehtiyac duyulmurdu. Çünki həmin səslərin tembri və səs keyfiyyəti qarmon ifaçılarını qane etmirdi. Belə qarmonların çəkisi də çox ağır idi.

Qarmon aləti həm də gəlin gətirmə mərasimlərində gəzərgi ifa edildiyindən ifaçılar çəkisi yüngül olan alətlərə üstünlük verirdilər.



*30 klavişli azərbaycan qarmonu. (Tula istehsalı).*



*30 klavişli azərbaycan qarmonu. (Vyatka. Kirov istehsalı).*



*Teyyub Dəmirov(1908-1970)*



*Əhəd Əliyev (1893-1942)*

Azərbaycan qarmon ifaçılığında özünəməxsus xidmətləri olan Hüseyn Həsənovun da alətin təkmilləşməsində əhəmiyyətli rolu olmuşdur. O, Azərbaycan xalq çalğı alətlərində (əsasən telli alətlərdə - tarda, kamançada, udda) və ümumiyyətlə, milli musiqinin ifasında bəzən istifadə olunan ¼ tonların mühüm rol oynamasını nəzərə alaraq bu tonların da daxil edildiyi qarmon düzəltdirmişdir. Həmin alətdə ifaçı "Zəmin-Xara" və "Şur" muğamları əsasında olan melodiyaları səsləndirmişdir. Hüseyn Həsənovun digər bir novatorluğu ¼ tonlardan ibarət hazırladığı qarmonun sol gövdəsindən eyni

ölçüdə iki ədədin düzəltdilməsidir. Birinci gövdə - adi Azərbaycan qarmonunda olduğu kimi iki oktava yarım diapazona malik xromatik səs düzümlüdür, ikincisi isə akkordeon və bayanın sol tərəfindəki səsdüzümünə uyğun olaraq, düyməciklər vasitəsilə baslar və akkordları ifa edir. İfa olunan musiqi əsərindən asılı olaraq sol gövdələrdən biri digəri ilə əvəz olunur. Hüseyn Həsənov klassik əsərləri ifa etmək üçün qarmon ustalarına üç oktavalı (do) in C qarmon da sifariş edib düzəltdirmişdir. Qarmon üzərində apardığı bir sıra islahatlara görə Hüseyn Həsənov da novator ifaçı kimi tanınır.



***37 klavişli və surdinalı Azərbaycan qarmonu***

Qarmonun səslənmə, ifaçılıq imkanlarının genişləndirməsi sahəsində biz də müəyyən dərəcədə işlər görmüşük. 1980-ci illərin sonlarından başlayaraq artıq peşəkar qarmon ifaçısı kimi alətdə olan bir sıra nöqsan və çatışmazlıqlar diqqətimizdən yayınmır, problemin həlli yollarını axtarırdıq. Belə ki, iki oktava yarım səsdüzümü olan qarmonumuzda müxtəlif səpkili əsərləri çalarkən diapazonun geniş olmaması və yalnız bir səs tembrinin mövcudluğundan narazı idik. Təbii ki, daha geniş diapazonlu bir alətin axtarışında olan ifaçını belə bir alət tam qane etmir, istədiyi ifa və səslənməyə nail ola bilmirdi. Odur ki, alətə əlavə və dəyişikliklər etmək barədə düşünürdük. Lakin o zaman ölkəmiz keçid dövründə, müharibə şəraitində olduğuna görə bu ideyamızı reallaşdıra bilmədik. 2001-ci ildə isə bu fikirləri həyata keçirmək qərarına gəlib, bir neçə il ərzində peşəkar qarmon ustalarına öz fikir və düşüncələrimizi çatdırmaqla yeni səpkidə bir neçə alət düzəltdirdik və nəticədə istədiyimiz iki yeni aləti əldə etdik.

Daha dəqiq desək, 1980-ci illərin sonunda planlaşdırdığım yeni aləti nəhayət, 2001-2007-ci illərdə usta Zahir Dadaşovun və Vladimir Tarasovun köməkliyilə hazırladıq. Bu üç oktavalı və yeni registrli alət əvvəl in C (do) kökündə hazırlanmışdı. Alətin diapazonu böyük oktavanın F səsindən ikinci oktavanın F səsinə qədərdir. Sonralar isə bir qədər də təkmilləşmə nəticəsində daha bir alətin - in H (si) kökündə olan üç oktavalı, yeni registrli qarmonun hazırlanması mümkün olmuşdu. Bu aləti usta Vladimir Tarasov bizim bütün tövsiyə və tapşırıqlarımızı nəzərə alaraq yüksək səviyyədə hazırlamışdı. Yeni alətin də diapazonu böyük oktavanın F səsindən ikinci oktavanın F səsinə qədərdir. Hər iki alətin sağ tərəfində (qrifində) 22 ağ 15 qara dil var, eyni ilə sol tərəfdə də eyni diapazonludur. Nəticədə iki növ eyniadlı qarmon ərsəyə gəldi: “Renever” in C və “Renever” in H.

Yeni alətləri “Renever” adlandırdıq. Şayiələr gəzir ki, Ənvər ixtira etdiyi alətləri adlandırarkən öz adına uyğunlaşdırmışdır. Bu, əsla belə deyildir. Renever sözünü etimoloji baxımdan açıqlamaq istəyirik. “Renever” söz birləşməsidir və iki hissədən ibarətdir: “*Re*” və “*Never*”. “*Re*” sözönü olub yenilənmə, təkrar yanaşma mənasını da-

şıyır. Sözün ikinci komponenti “*never*” isə ingilis sözüdür, dilimizə “heç vaxt” mənasında tərcümə edilir. Nəticə olaraq, “Renever” sözü çalğı alətinin adında “heç vaxt yenilənməyəcək”, “heç vaxt olmayacaq”, daha dəqiqi, burada təkmilləşdirilməyə ehtiyacı olmayan mükəmməl alət mənasını bildirir.

“Renever” markalı 3 oktavalı qarmonun ümumi görünüşü




“Renever” qarmonlarının konstruksiyasında sağ tərəfin səs tircikləri 9-dur, bunlardan 5-i bir tonlar, 4-ü isə yarımtonlardır, sol tərəfdə isə 2 bir ton, 2 də yarımton tircik vardır. Hər iki alətin səsi və tembri adi Azərbaycan qarmonunun səs tembri kimidir, amma yeni yaratdığımız registri tətbiq etdikdə ən bəm tirciklər bağlanır və alətin səs diapazonu bir oktava zilləşərək yeni tembr, yeni ahəng yaranır və bu halda diapazon üçüncü oktavanın F səsinə qədər yüksəlir. Alətə surdina (səsin zil tembrini azaldaraq bəmləşdirmək üçün) da qoyulmuşdur. Nəticədə bir alətdə iki səs tembrindən istifadə etməyə nail olduq. Yeni əlavə etdiyimiz surdina isə istədiyimiz vaxt qarmonun səsinin zilliyini azaldıb yumşaqlıq gətirir, bu da daha geniş imkanlar yaradır.

H kökündə olan yeni qarmon xalq çalğı alətləri ansamblı və orkestrlərimiz, C köklü qarmon isə dünya standartlarına uyğun, yəni simfonik, estrada və kamera orkestrlərilə birgə ifa üçün nəzərdə tutulur. Bütün bunlar ifaçı üçün çoxlu yeni və geniş imkanlar yaradır.

Yeni alətə olan yüksək tələbat tez bir zamanda onun yayılmasına səbəb oldu. 2014-cü ildə “Renever” adlı üç oktavalı yeni registrli Azərbaycan qarmonun ixtirasına görə müəlliflik şəhadətnaməsi alınmışdır. 2018-ci ildə isə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində ixtira kimi qeydiyyatdan keçərək patentləşdirilmişdir. Bu yeni qarmon səs diapazonunun geniş olduğundan əlavə, həm də daha bir səs registrinin olmasına görə Azərbaycan qarmon ifaçılığı üçün yeni imkanlar yaratmış və gənc ifaçılar arasında geniş yayılmaqdadır.

“Renever” markalı 3 oktavalı qarmonun yan görünüşü




Üç oktavalı yeni registrli qarmonun hazırlanmasının müəyyən əsasları vardır. Bu, bilavasitə muğam ifaçılığında əhəmiyyətli nəticə verir. Bəzi muğamlarımızın “Bərdaşt” şöbəsinin, zil pərdələrdə ifa olunan şöbə və guşələrin çalğısı zamanı bəzən səslərin (pərdələrin) çatışmaması özünü göstərir. Xüsusilə, qarmon ifaçıları “Qatar”, “Şahnaz”, “Mirzə Hüseyn segahı”, “Mahur Hindi” və digər muğamları ifa edərkən belə çətinliklərlə rastlaşırlar. Belə ki, çalğı zamanı müəyyən guşə və şöbələrdə pərdələri tam göstərmək mümkün olmadığına görə, cümlələri tamamlamaq məqsədilə orta və bəm registrə qayıtmaq məcburiyyəti yaranır. Eyni zamanda bəmə, böyük oktavanın F notuna qədər artırılmış diapazondakı

səslərdən də muğam ifası zamanı tar alətimizdə olan kök tel və bas tellərdə olduğu kimi məharətlə istifadə etmək mümkündür. Bu baxımdan üç oktava registrli qarmonun hazırlanması ilə ilk növbədə, muğamlarımızın, eyni zamanda klassik və bəstəkar əsərlərinin də dolğun və bitkin şəkildə ifasına nail olmuşuq.

Beləliklə, Azərbaycan qarmonunun təkmilləşməsi nəticəsində zəngin irsə malik olan xalq musiqi nümunələrinin də inkişafı və zənginləşməsi üçün geniş imkanlar açılır. Alətin texniki imkanlarının artması nəticəsində onda ifa olunan xalq melodiyalarının yeni intonasiyalarla, alterasiyalı bəzəklərlə, yarımtonlu melizmlərlə zənginləşməsi daha maraqlı variantların meydana gəlməsini mümkün edir. Bundan əlavə, qarmon aləti üçün xüsusi mürəkkəb ifa texnikası tələb edən yeni-yeni əsərlərin də yaranmasına yol açılır.

Sonda bir daha vurğulamaq istərdik ki, XXI əsr qloballaşma dövrü, mədəniyyətlərin qarşılıqlı əlaqəsi, yaxınlaşması dövrüdür. Artıq digər milli və klassik musiqi alətləri ilə yanaşı, qarmonumuz da dünya səhnələrində səslənməkdə və özünə diqqət çəkməkdədir. Son bir neçə ildir ki, yeni qarmon uğurla sınaqdan çıxarılıb, konsertlərdə, xarici ölkələrə qastrol səfərlərində, dövlət tədbirlərində müvəffəqiyyətlə təmsil olunur. Əminəm ki, yaratdığımız yeni qarmon aləti Azərbaycan qarmon ifaçılıq sənətini təkmilləşdirərək musiqimizin inkişafına, habelə mədəni irsimizə layiqli xidmət edəcək, yeni-yeni uğurlar gətirəcəkdir.

**ƏDƏBİYYAT:**

1. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. B.: Adiloğlu, 2002, 454 s.
2. Əhmədov Ə.Ə. Nizami - elmşünas (ikinci nəşr). B.: Möminin, 2001, 256 s.
3. Mirzəyev Z.Q. Azərbaycan qarmonu. B.: Adiloğlu, 2005, 162 s.
4. Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Yenidən işlənmiş II nəşr. B.: MBM, 2004, 224 s.
5. Rəsulov N.M. Qarmon məktəbi. B.: Çaşıoğlu, 1999, 102 s.
6. Rəhmanlı Ə.M. Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi. B.: MBM, 2014, 704 s.
7. Nəcəfzadə A.İ. Musiqi. / Azərbaycan incəsənət tarixi. Beş cilddə, II c. B.: Şərq-Qərb, 2018, 328 s.
8. Максимов Е.И. Ансамбли и оркестры гармоник. М.: Сов.композитор. 1979, 175 с.
9. Сперанский С.Л. Музыкальные товары - товароведение. М.: Экономика, 1987, 176 с.

**Энвер САДЫГОВ**
Старший преподаватель кафедры
“Инструментального мугама”
АНК, народный артист Азербайджана

## ОБ УСОВЕРШЕНСТВОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ ГАРМОНИ

***Резюме:*** *Начиная со второй половины XIX века инструмент гармонь, вошедший в быт азербайджанского народа, а с 30-х годов XX века и в профессиональную музыку, постепенно совершенствовался и формировался именно как азербайджанская гармонь. В представленной статье раскрываются исторические сведения о национальной гармони, известных исполнителях и профессиональных мастерах, добившихся ее усовершенствования.*
***Ключевые слова:*** *гармонь, исполнитель, профессиональная музыка, музыкальные инструменты*

**Anvar SADIGOV**
Senior lecturer of ANC,
Department of "Instrumental mugham"

## ON IMPROVEMENT OF AZERBAIJANI GARMON (AKKORDION)

***Summary:*** *Since the second half of the XIX century, the instrument of Garmon (Akkordion), which entered the life of the Azerbaijan people and from the 30s of the XX century into our professional music, has been improved from time to time and formed as a Garmon (Akkordion) of the Azerbaijan. The article provides information about the successful improvement of our National Accordion, our skilled performers and professional masters who have achieved its improvement.*
***Keywords:*** *accordion, performer, professional music, musical instruments*

**Rəyçilər:** AMK-nın professoru, sənətşünaslıq elmləri doktoru Abbasqulu Nəcəfzadə
sənətşünaslıq üzrə fəlsəfə doktoru Əhsən Rəhmanlı